Azərbaycan Respublikası
Naxçıvan Muxtar Respublikası

Azerbaijan Republic
Nakhchivan Autonomous Republic

Азербайджанская Республика
Нахчыванская Автономная Республика

Nizami ALIYEV

GƏMİQAYA QAYAÜSTÜ RƏSMLƏRİ
GAMIGAYA PETROGLYPHS
НАСКАЛЬНЫЕ РИСУНКИ
ГЯМИГАЯ

Naxçıvan - 2020

Layihə rəhbəri:
Vasif TALIBOV
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri
Project Director:
Vasif TALIBOV
The Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic
Руководитель проекта:
Васиф ТАЛЫБОВ
Председатель Верховного Меджлиса Нахчыванской Автономной Республики

Elmi redaktor:
Vəli BAXŞƏLİYEV
Tarix üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü
Scientific editor:
Vali BAKHSHALIYEV
Doctor of Historical Sciences, Associate Member of Azerbaijan National Academy of Sciences
Научный редактор:
Вели БАХШАЛИЕВ
Доктор исторических наук, член-корреспондент НАН Азербайджана

Müəllif:
Nizami ALIYEV
Gəmiqaya qayaüstü rəsmləri. *Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2020, 576 səh.*
Author:
Nizami ALIYEV
Gamigaya petroglyphs. *Nakhchivan: "Ajami" Publishing-Polygraphy Association, 2020, 576 p.*
Автор:
Низами АЛЫЕВ
Наскальные рисунки Гямигая. *Нахчыван: Издательско-полиграфическое объединение "Аджеми", 2020, 576 с.*

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Gəmiqayadakı qayaüstü rəsmlərin mühafizə vəziyyətini araşdırmaq və onları qeydə almaq məqsədilə 2016-cı ilin avqust ayında mütəxəssislərdən ibarət "Gəmiqaya ekspedisiyası" yaratmışdır. Ekspedisiya qayaüstü rəsmlərin yayıldığı 136 hektar ərazidə olmuş, 2040 daş üzərində 7422 təsvir qeydə almışdır.

Həmin təsvirləri ilk dəfə olaraq kompleks şəkildə özündə əks etdirən bu kitab xalqımızın qədim tarixi ilə maraqlananlar üçün qiymətli mənbədir.

The Supreme Majlis of Nakhchivan Autonomous Republic organized "Gamigaya expedition" in August, 2016 consisting of specialists with the purpose of examining the protection condition of rock arts in Gamigaya and also registering them. The expedition has visited the area of 136 hectares where the rock arts are spread, and recorded 7422 descriptions on 2040 stones.

This book is a valuable source for those who are interested in old history of our people reflecting those descriptions in a complex form for the first time.

С целью иследования состояния защиты и регистрации наскальных рисунков Гямигая в августе 2016 года Верховным Меджлисом Нахчыванской Республики была создана «Экспедиция Гямигая». Экспедиция была на территории 136 гектаров распространения наскальных рисунков, где на 2040 камнях зарегистрировано 7422 изображения.

Настоящая книга, которая впервые представляет эти изображения в комплексном виде, является ценным источником для тех, кто интересуется древней историей нашего народа.

4700000000
053-2020

© Alıyev. N, © "Əcəmi" 2020, ©"Ajami" 2020, ©"Аджеми" 2020.

Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Möhtərəm Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın tarixinin və soykökünün öyrənilməsi sahəsində 70-ci illərdən aparılan elmi araşdırma və tədqiqat işləri yenidən davam etdirilir. Hazırda qədim mədəniyyətimizin və tariximizin bir çox sahələri ölkəmiz müstəqillik qazanandan sonra yaranmış reallıqlar baxımından araşdırılır və tədqiq edilir. Bu baxımdan ciddi elmi tədqiqat işlərinin aparılmasını zəruri edən sahələrdən biri də qayaüstü rəsmlərin, qədim yazı təsvirlərinin öyrənilməsidir.

Azərbaycan və ona bağlı Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məşhurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksidir.

Xalqımızın tarixi etnoqrafiyası və arxeologiyası üçün çox ciddi əhəmiyyətə malik olan Gəmiqaya qayaüstü təsvirləri Kiçik Qafqaz dağlarının dəniz səviyyəsindən 3000-3500 metr yüksəkliyində yerləşən Qaranquş, Camışölən və Nəbiyurdu yaylaqlarında qeydə alınmışdır.

Süjet, kompozisiya mürəkkəbliyi ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə, ovçu, maldar və əkinçi tayfaların təsərrüfat həyatına həsr olunmuşdur. Gəmiqaya qayaüstü təsvirləri içərisində bayram mərasimlərini əks etdirən rəsmlərlə yanaşı müxtəlif astronomik, coğrafi təsvirli rəsmlər də vardır.

Xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri sənət nümunələri kimi tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verir.

Gəmiqaya abidələrinin tədqiqinə 1970-ci illərdə - möhtərəm Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, 1970-1987-ci illərdə Gəmiqayada tədqiqat işləri aparılmış, bir sıra elmi materiallar çap olunmuşdur.

Təəssüflə qeyd olunmalıdır ki, 70-ci illərdən xalqımızın milli özünüdərki, tariximizin və mədəniyyətimizin araşdırılması sahəsində hayata keçirilən bir çox taleyüklü tədbirlər kimi, Gəmiqaya abidələrinin tədqiqi sahəsində aparılan işlər də 1980-ci illərin axırlarından unudulmağa başlanmış, tədqiqat işlərinə ara verilmişdir. Yaranmış boşluqdan istifadə edən millətçi erməni "tədqiqatçıları" gizli şəkildə Gəmiqayada tədqiqat aparmışlar. Aparılan işlərin nəticəsi olaraq nəşr edilən "Navasarın qaya təsvirləri" və "Naxçıvanın memorial abidələri və relyefləri" adlı materiallarda erməni alimləri tarixi saxtalaşdırmaq sahəsində öz ənənələrinə sadiq qalaraq xalqımızın ən qədim yadigarı olan Gəmiqaya abidələrini heç bir elmi əsas olmadan erməni abidəsi kimi qələmə verməyə çalışmış, Gəmiqayanın adını "Navasar", "Tapanasar" kimi uydurma adlarla əvəz etmişlər.

Qədim turk dünyası mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının ən qədim tarixinin və mənəvi mədəniyyətinin öyrənilməsi üçün xəzinədir. Bu abidələrin qorunub saxlanaraq gələcək nəsillərə çatdırılması, ardıcıl və sistemli şəkildə tədqiq edilməsi üçün qərara alıram:

1. Azərbaycan Respublikası Elmlər Akademiyası Naxçıvan Regional Elm Mərkəzi və Naxçıvan Dövlət Universiteti Azərbaycan Elmlər Akademiyasının mütəxəssislərini dəvət edib, onlarla birlikdə Gəmiqaya abidələrində elmi tədqiqat işlərinin aparılması üçün "Gəmiqaya" ekspedisiyasını təşkil etsinlər.

2. Ekspedisiyaya tapşırılsın ki, Gəmiqaya abidələrinin qorunub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə elmi rəy hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin.

3. Sərəncamın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatına tapşırılsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 26 aprel 2001-ci il
№ 26-01/S

DECREE OF THE CHAIRMAN OF SUPREME MAJLIS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC ON THE INVESTIGATION OF GAMIGAYA MONUMENT IN ORDUBAD REGION

Scientific researches and investigations in the field of study of the history and genealogy of our nation which were underway since 1970 have been continued after our national leader Heydar Aliyev's coming back to the power. Many fields of our ancient culture and history are studied in terms of the realities which emerged after gaining our independence. In this regard, one of the areas to be seriously studied is the rock art and ancient petroglyphs.

Azerbaijan and its integral part Nakhchivan Autonomous Republic are famous for their historical monuments, which are the carriers of the ancient culture. One of such monuments is said to be the Gamigaya historical and etnographic monuments complex, which proves the fact that our nation historically belongs to this region.

The Gamigaya petroglyphs which are of great importance for the historical ethnography and archeology of our nation, have been investigated in Garangush, Jamisholen and Nabiyurdu plains of the Lesser Caucasus, which locate at an altitude of 3000-3500 meters above the sea level.

The theme of these paintings, which differs in plot and composition, is devoted to the belief and labor activity of our ancestors, the economic life of hunters, cattle-breeder and farming tribes. There are various astronomical and geographical drawings, along with paintings depicting festive rituals in rock paintings.

Created in connection with the lifestyles and ancient traditions of our people, Gamigaya petroglyphs enable to study the early stages of our history and culture as valuable historical and fine art examples in chronological sequence

It should sadly be noted that, like many of the 70's of our nation's national identity, the study of our history and culture, the work on exploring the Gamigaya monuments has begun to be forgotten since the late 1980s.

Nationalist Armenian "researchers" using the created gap continued their study in Gamigaya secretly. As a result of this work, Armenian "researchers" tried to show the ancient memory of our nation, Gamigaya monuments as Armenian monuments in the materials such as "Navasar rock arts" and "Nakhchivan's memorial monuments and reliefs" as always with the falsification of the history and even without any scientific basis. They replaced "Gamigaya" with the "fake" names such as "Navasar" and "Tapanasar".

The Gamigaya monuments, which contain rock arts typical to the ancient Turkic culture, are a treasure for studying the ancient history and spiritual culture of the Azerbaijani people. To convey these monuments to future generations by preserving, as well as to investigate continuously and in systematically, I decide:

1. The Nakhchivan Regional Science Center of the Academy of Sciences of the Republic of Azerbaijan and Nakhchivan State University to invite experts from the Academy of Sciences of Azerbaijan, and to organize an expedition to Gamigaya for the purpose of conducting scientific research at the Gamigaya monuments.

2. The expedition to be tasked to prepare and submit a scientific review to the Supreme Majlis of Nakhchivan Autonomous Republic on the findings of the research for the preservation, consecutive and systematic study of the Gamigaya monuments.

3. The Office of the Supreme Majlis of Nakhchivan Autonomous Republic to be tasked to supervise the implementation of the decree.

Chairman of Supreme Majlis of
Nakhchivan Autonomous Republic **VASIF TALIBOV**

The city of Nakhchivan, April 26, 2001
№ 26-01/S

РАСПОРЯЖЕНИЕ ПРЕДСЕДАТЕЛЯ ВЕРХОВНОГО МЕДЖЛИСА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Об исследовании памятника Гямигая в Ордубадском районе

После возвращения к политической власти во второй раз уважаемый Гейдар Алиев вновь продолжает научные исследования, проводимые с 70-х годов в области изучения истории и этногенеза нашего народа. В настоящее время многие сферы нашей древней культуры и истории изучаются и исследуются с точки зрения реалий, возникших после обретения нашей страной независимости. В этой связи одной из сфер, требующих проведения серьезных научных исследований, является изучение наскальных рисунков, древних письменных изображений.

Азербайджан и его неотъемлемая часть - Нахчыванская Автономная Республика славятся историческими памятниками - носителями древней культуры. Один из таких памятников - комплекс историко-этнографических памятников Гямигая, являющийся каменным свидетельством принадлежности этой земли нашему народу.

Наскальные рисунки Гямигая, имеющие очень серьезное значение для исторической этнографии и археологии нашего народа, были зафиксированы на пастбищах Гарангуш, Джамышолен и Набиюрду в горах Малого Кавказа, находящихся на высоте 3000-3500 метров над уровнем моря.

Тема этих рисунков, отличающихся сложностью сюжета, композиции, посвящена убеждениям и трудовой деятельности наших предков, хозяйственной жизни племен охотников, скотоведов и земледельцев. Среди наскальных рисунков Гямигая, наряду с рисунками, отражающими праздничные обряды, есть и различные изображения астрономического и географического характера.

Рисунки Гямигая, связанные с образом жизни нашего народа и с его древними обычаями и традициями, как образцы ценного исторического и изобразительного искусства, позволяют с хронологической последовательностью отслеживать и изучать начальные этапы развития нашей истории и культуры.

Изучение памятников Гямигая началось в 1970-е годы - в первый период политического руководства Азербайджаном уважаемым Гейдаром Алиевым. В 1971 году Президиум Академии Наук Азербайджанской Республики принял решение провести исследовательские работы в Гямигае, издать научный альбом, снять научно-популярный фильм, в соответствии с чем в 1970-1987 годах были проведены исследовательские работы в Гямигае, издан ряд научных материалов.

К сожалению, следует отметить, что как многие судьбоносные мероприятия, проводимые с 70-х годов в области национального самосознания, изучения истории и культуры нашего народа, работы в области изучения памятников Гямигая, начиная с конца 1980-х годов были преданы забвению, прерваны исследовательские работы. Используя возникшую пустоту, “исследователями” армянских националистов были тайно проведены исследования на Гямигае. В опубликованных в результате работ материалах под названием “Наскальные изображения Навасара” и “Мемориальные памятники и рельефы Нахчывана” армянские ученые, придерживаясь своих традиций в области фальсификации истории, без каких-либо научных оснований пытались представить древнейшую реликвию нашего народа - памятники Гямигая как армянские, заменив название Гямигая выдуманными именами “Навасар”, “Тапанасар”.

Памятники Гямигая, отражающие наскальные рисунки, характерные для культуры древнего тюркского мира, являются сокровищем для изучения древней истории и духовной культуры азербайджанского народа. В целях сохранения и передачи этих памятников будущим поколениям, последовательного и систематического их исследования, постановляю:

1. Нахчыванскому региональному научному центру Академии Наук Азербайджанской Республики и Нахчыванскому государственному университету пригласить специалистов Академии Наук Азербайджанской Республики и организовать с ними экспедицию “Гямигая” для проведения научно-исследовательских работ на памятниках Гямигая.

2. Поручить экспедиции подготовить и представить в Верховный Меджлис Нахчыванской Автономной Республики научный отчет о результатах исследовательской работы по сохранению, последовательному и систематическому изучению памятников Гямигая.

3. Контроль за исполнением распоряжения возложить на аппарат Верховного Меджлиса Нахчыванской Автономной Республики.

Председатель Верховного Меджлиса
Нахчыванской Автономной Республики **ВАСИФ ТАЛЫБОВ**

Город Нахчыван, 26 апреля 2001 года
№ 26-01/S



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Gəmiqayada tədqiqat aparan alimlərlə görüşü

Gəmiqaya, Qaranquş yaylası avqust 2002-ci il

The chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic Mr. Vasif Talibov meets the scholars engaged in the research at Gamigaya

Gamigaya, the plain of Karankush, August 2002

Встреча господина Васифа Талыбова, Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики, с учеными, ведущие исследование в Гямигае

Гямигая, плато Гарангуш август 2002 года



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Gəmiqayada Beynəlxalq Ekspedisiyasının iştirakçıları ilə

Gəmiqaya, Qaranquş yaylası 20 iyul 2005-ci il

The chairman of Supreme Majlis of Nakhchivan AR Mr. Vasif Talibov with the participants of International Expedition at Gamigaya

Gamigaya, the plain of Garangush, July 20, 2005

Председатель Верховного Меджлиса Нахчыванской Автономной Республики господин Васиф Талыбов вместе с участниками Международной Экспедиции в Гямигае

Гямигая, плато Гарангуш 20 июля 2005 года



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simposiumun açılış mərasimində
Naxçıvan şəhəri
20-iyul 2011-ci il

The chairman of Supreme Majlis of Nakhchivan AR Mr. Vasif Talibov at the opening ceremony of international symposium on «Nakhchivan as an ancient settlement and township building place»
The city of Nakhchivan,
July 20, 2011

Председатель Верховного Меджлиса Нахчыванской Автономной Республики господин Васиф Талыбов в пленарном заседании Международного симпозиума «Нахчыван как место первобытного обитания людей и раннего градостроительства»
город Нахчыван, 20 июля 2011 года



"Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simposiumun yekun müzakirəsinin iştirakçıları Gəmiqayada
Gəmiqaya Qaranquş yaylası
24-iyul 2011-ci il

Participants of final discussion of international symposium on «Nakhchivan as an ancient settlement and township building place» at Gamigaya
Gamigaya, the plain of Garangush,
July 24, 2011

Участники последнего заседания Международного симпозиума «Нахчыван как место первобытного обитания людей и раннего градостроительства»
Гямигая, плато Гарангуш
24 июля 2011 года



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyinin açılışında
21 dekabr, 2013-cü il

The chairman of Supreme Majlis of Nakhchivan AR Mr. Vasif Talibov at the inauguration of the Gamigaya State History-Artistic Reserve Museum
December 21, 2013

Председатель Верховного Меджлиса Нахчыванской Автономной Республики Васиф Талыбов на открытии Гямигаинского государственного историко-художественного музея-заповедника
21 декабря 2013-го года



Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyi

Gamigaya State History-Artistic Reserve Museum

Гямигаинский Государственный историко-художественный музей-заповедник

Gəmiqaya abidələri Azərbaycanın qədim mədəniyyət və incəsənət xəzinəsidir

Dünyanın müxtəlif ölkələrində mövcud olan qayaüstü rəsmlər həmişə tarixçi, arxeoloq, sənətşünas, etnoqraf, dilçi, folklorçu, habelə zoologiya və digər elm sahələri ilə məşğul olan tədqiqatçıları özünə cəlb edən və tarixi mənbə kimi böyük əhəmiyyətə malik olan nadir abidələrdəndir. Dövrümüzün sirli daş salnamələri hesab olunan bu cür abidələr Fransa (Şaffo və Limeylya), İspaniya (Altamir, Xornos-de-laPenya, Pasıyeqa), Avstraliya (Tasmaniya), Afrika (Tasilli Adjer), Orta Asiya (Saymalıtaş), Ural (Karova), Sibir (Tom və Anaqara çayı sahili), Kareliya (Ağdəniz və Oneqa gölləri sahili), Çukotka, Cənubi Amerika, Türkiyə, İran, Qafqazda və dünyanın digər bölgələrində aşkar edilmişdir.

Digər ölkələrlə müqayisədə Azərbaycanda olan qayaüstü rəsmlərin coğrafiyası daha genişdir və onların tarixi daha qədimlərə gedib çıxır. Respublikamızın müxtəlif bölgələrində aşkar olunmuş qayaüstü rəsmlər Dağıstan, Anadolu, İran, Orta Asiya və Sibirdəki qayaüstü rəsmlərlə müəyyən cəhətdən oxşarlıq təşkil etsə də, hər biri özünəməxsus əlamətləri ilə fərqlənir. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda yerləşən Gəmiqaya qayaüstü rəsmləri Qafqazın zəngin qayaüstü rəsmləri kimi bu gün də alimlərin diqqətini özünə cəlb etməkdədir.

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyevin fikrincə, "Kiçik Qafqazın bir-birinə qonşu müxtəlif regionlarında mövcud olan qədim qayaüstü təsvirlər həkkedilmə texnikasına, rəsmlərin motivlərinə, kompozisiyalı səhnələrə, semantik məzmunlarına görə çox oxşardırlar. Azərbaycan qayaüstü təsvirləri qonşu Anadolunun qədim incəsənət abidələri ilə də sıx bağlıdır. Anadolunun Hakkari, Palanı və Beldibi regionu abidələrindəki Neolit, Tunc dövrlərini əhatə edən insan və heyvan rəsmləri (keçi, it və s.) öz motivlərinə, sxematikliyinə görə Gəmiqaya, Kəlbəcər, Qobustan və eləcə də Kiçik Qafqazın digər regionlarının və Şimali Qafqazın qayaüstü təsvirləri ilə yaxın analogiya təşkil edir. Lakin Naxçıvan ərazisindəki Gəmiqaya təsvirlərindəki ov səhnəsi, müxtəlif piktroqrafik işarələr bu ərazi təsvirlərinin digərlərindən daha qədim tarixə söykəndiyini sübut edir".

Naxçıvan Muxtar Respublikasındakı Gəmiqaya rəsmləri 1965-ci ildə geoloqlar tərəfindən aşkar olunsa da əsasən 1968-ci ildən sonra tədqiqatçıları özünə cəlb etmiş, son 50 ildə bu tarixi abidələr haqqında bir çox elmi əsərlər yazılmış, yeni elmi nəticələr əldə edilmişdir.

26 aprel 2001-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, "Gəmiqaya abidələrinin tədqiqinə 1970-ci illərdə – möhtərəm Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, 1970-1987-ci illərdə Gəmiqayada tədqiqat işləri aparılmış, bir sıra elmi materiallar çap olunmuşdur".

1980-ci illərin sonlarında Azərbaycan Respublikasında yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar tədqiqat işləri dayandırılsa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dahi rəhbərin tövsiyəsi ilə 2001-ci ildən başlayaraq Gəmiqayaya mütəmadi olaraq elmi ekspedisiyalar təşkil edilmişdir. Bütün bunların nəticəsi olaraq, Gəmiqaya abidələrinin tədqiqinə həsr edilmiş elmi konfrans və simpoziumlar keçirilmiş, onlarla kitab və elmi məqalələr nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində elmi ekspedisiyaların fəaliyyəti təmin edilmiş, Gəmiqayaya yol çəkilmiş, abidələrin qorunması üçün bütün tədbirlər həyata keçirilmişdir. Ali Məclisin Sədri Vasif Talıbov bir neçə dəfə (2001, 2002, 2005, 2013-cü illərdə) Gəmiqayaya səfər etmiş, qayaüstü rəsmlərin yayıldığı ərazilərlə tanış olmuş, ərazidə tədqiqat aparan alimlərlə görüşmüş, tədqiqat işləri ilə bağlı tövsiyələr vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2013-cü il dekabrın 21-də dünyanın ən hündür bölgələrindən birində, dəniz səviyyəsindən 2500 metr yüksəklikdə tikilmiş Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyinin açılışında iştirak etmişdir. Ali Məclis Sədrinin Gəmiqaya abidələrinə verdiyi dəyər, bu abidələrin tədqiqinə göstərdiyi yüksək diqqət və qayğı elm adamlarının öz milli tarixinə sahib çıxmasına əsl vətəndaşlıq çağırışıdır desək yanılmarıq.

Gəmiqaya abidələrinin ümumbəşəri dəyərləri və xalqımızın qədim tarixinin öyrənilməsi istiqamətindəki əhəmiyyəti nəzərə alınaraq, 2005-ci il iyul ayının 17-dən 20-nə kimi Gəmiqayada Beynəlxalq Ekspedisiya fəaliyyət göstərmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə yekun nəticələrinin müzakirəsi aparılmışdır. 2011-ci il iyul ayının 20-dən 24-nə kimi Naxçıvan şəhərində keçirilən "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpoziumun bağlanış mərasimi də Gəmiqayadakı Qaranquş yurdunda keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 5 may 2006-cı il tarixli qərarı ilə Gəmiqaya Tarix-Bədii Qoruğu yaradılmışdır.

Gəmiqaya abidələrinin tədqiqatçıları arasında rəsmlərin sayı, onların yayılma arealı, həkkedilmə texnikası, dövrü və həmin rəsmlərin daşıdığı mənalar haqqında müxtəlif fikirlər mövcuddur. Belə ki, Gəmiqaya abidələrinin ilk tədqiqatçılarından biri olan Vəli Əliyev burada 2000-ə qədər qayaüstü rəsm olduğunu və onların cızma, döymə və sürtmə texnikası ilə həkk edildiyini bildirməklə, bunların insanların sosial həyat tərzi, ideologiyası, müxtəlif adət-ənənələri, estetik və fəlsəfi baxışları ilə əlaqədar yarandığını qeyd edir. Onun qənaətincə, piktoqramların müəyyən qrupu e.ə. IV-III minilliklərə, sxematik keçi, öküz və insan rəsmlərinin əksəriyyəti isə e.ə. IV-II minilliklərə aiddir.

Dilçi-alim, filologiya üzrə fəlsəfə doktoru Əbülfəz Hüseyni yazır ki, Dünya tufanı baş verdikdən sonra Nuhun gəmisi bu ərazidə dağ zirvəsinə toxunmuş və tufandan qurtaran insanlar başlarına gələn hadisələri, məişət mərasimlərini, səma cisimləri haqqındakı təsəvvürlərini daşlar üzərinə həkk etmişlər.

Gəmiqaya haqqında ilk sənədli filmin müəllifi, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Arif Qədim məqalələrinin birində yazır: "O dövrdə burada yaşayan ulu babalarımız

gördüklərini və başlarına gələnləri, bizlərə yalnız şərti cizgilərlə-işarələrlə, yəni konkret olmayan detallarla çatdırmağa çalışmışlar".

AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru Vəli Baxşəliyev burada 2000-ə yaxın qayaüstü rəsmin aşkar olunduğunu, yazıların qayalar üzərinə əsasən qazma, cızma və döymə texnikası ilə həkk olunduğunu, bunların yalnız yarımköçəri maldarlıqla deyil, insanların inancları ilə də bağlı olduğunu yazmışdır. Vəli Baxşəliyevin tədqiqatlarında təsvirlərin tarixi kökləri, onların izahı, dövrləşdirilməsi, rəsmlərin mifologiyası, onların yerləşdiyi topoqrafiya və başqa bu kimi məsələlər geniş yer tutur. V.Baxşəliyevin fikrincə, Gəmiqaya petroqlifləri e.ə. IV-II minilliklərə aiddir.

AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru Fəxrəddin Səfərli rəsmlərin sayı haqqında məlumat verməsə də, onların qayalar üzərinə sürtmə yolu ilə həkk edildiyini, qayaüstü təsvirlərin insanların həyat və düşüncə tərzi, estetik zövqləri, adət və ənənələri ilə bağlı olduğunu qeyd etmişdir. F.Səfərli də buradakı rəsmlərin e.ə. IV-I minilliklərə aid olduğunu bildirir.

Tarix üzrə elmlər doktoru Nəcəf Müseyibli Gəmiqaya petroqliflərinin sayının 1000-dən artıq olduğunu və onların qazma, sürtmə və döymə üsulu ilə rəsm edildiyini vurğulamaqla, bunların qədim insanların dünyagörüşləri, onları əhatə edən mühit, həyat tərzləri, təsərrüfat fəaliyyətləri, dini inancları ilə bağlı olduqlarını göstərmişdir. N.Müseyibli bu təsvirlərin e.ə. IV-I minilliklərə aid olduğunu bildirmişdir.

Tarix üzrə elmlər doktoru Abbas Seyidov burada 500-dən artıq qaya parçası üzərində 1000-dən artıq qazma, sürtmə və cızma üsulu ilə işlənmiş qayaüstü təsvirlərin aşkar edildiyini və bunların yalnız insanların köçmə təsərrüfat həyatı ilə bağlı olmadığını, həm də onların ideoloji baxışları ilə əlaqədar olduğunu yazmışdır. A.Seyidov Gəmiqaya rəsmlərini e.ə. IV-I minilliklərə aid etmişdir.

Filologiya elmləri namizədi Əjdər Fərzəli Gəmiqaya-Qobustan yazılarını elmi-tarixi, müqayisəli və metodik aspektdən sistemli şəkildə ilk dəfə analiz etməklə belə bir nəticəyə gəlmişdir ki, Gəmiqaya-Qobustan yazıları özündə elə bir sivilizasiyanı əks etdirməkdədir ki, bu elmə az məlumdur. O, qədim Yunan, Hind, Misir, Şumer və b. sivilizasiya və mədəniyyətlərdən qabaq meydana gəlməklə, özündən sonra gələn bütün sivilizasiya və mədəniyyətlərə çox güclü təsir etmişdir. Gəmiqaya-Qobustan mədəniyyəti birbaşa Azərbaycan (Oğuz) xalqlarına məxsusdur. Alim yazırdı ki, o Gəmiqayadan 24 Oğuz tamğasından 20-ni tapmaqla belə bir nəticəyə gəlmışdır ki, Türk-Azərbaycan əlifbasının əsasını Gəmiqaya-Qobustan əlifbası təşkil edir.

Gəmiqaya təsvirləri etnoqraf-alimlər (A.Abbasov, Q.Qədirzadə və b.) tərəfindən də öyrənilmiş və buradakı təsvirlərin arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət abidələri ilə müqayisəli təhlili verilmişdir.

Gəmiqayadakı qayaüstü rəsmlərin yayılma arealı, onların sayı, işlənmə texnikası və digər məsələləri yerində öyrənib dəqiqləşdirmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 2016-cı ilin avqust ayında "Gəmiqaya ekspedisiyası" yaradılmış və əraziyə ezam edilmişdir. "Gəmiqaya ekspedisiyası"nın üzvləri Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyinin əməkdaşları ilə birgə Qapıcıq zirvəsinin şimal-qərbindəki Neftli, Aşağı və Yuxarı Bacalar deyilən yerlərdən başlayaraq zirvənin qərbindəki Göllər, Qaranquş yaylağı, cənub-qərbindəki Nuh-Nəbi yurdu və Nazağa, Qapıcıq zirvəsinin cənubundakı Parağaçay dərəsində yerləşən Qızgəlin çuxuru adlanan yerlərədək min hektardan çox ərazidə yerləşən qayaüstü rəsmləri sistemli şəkildə öyrənərək qeydiyyata almışlar.

Gəmiqaya yaylağı Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisindəki Parağaçay qəsəbəsindən və Tivi kəndindən şimal-şərqdə, Nəsirvaz kəndindən şərqdə, Kiçik Qafqaz dağ sisteminin ən hündür silsiləsi sayılan Zəngəzur sıra dağlarının mərkəz hissəsində yerləşir. Silsilənin mərkəz hissəsi mütləq hündürlükləri 3500 metri keçən Qazangöldağ (3815,5 m), Dəvəboynu (3650,5 m), Qapıcıq (3906 m) və digər zirvələrdən ibarətdir. Nəsirvazçay və Parağaçay kimi sulu dağ çayları öz mənbələrini Qapıcıq zirvəsinin ətəklərinə axan onlarca zümrüd gözlü bulaqlardan götürür. Gəmiqaya yaylağının əsas yolu Nəsirvaz kəndindən olsa da, 2016-cı ildə çəkilmiş dairəvi yolla Parağaçay qəsəbəsindən Qızgəlin çuxuruna, oradan da asanlıqla Qaranquş yaylağına və Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyinə gəlmək olar.

Tədqiqatlar və axtarışlar zamanı bütün bölgələrdə üzərində rəsmlər olan daşlar tapılaraq nömrələnmiş, onların üzərindəki petroqliflərin öncə orijinal, sonra isə təbaşirlə ağardılaraq fotoları çəkilmiş, daşın yeri, ölçüsü, forması, üzərindəki rəsmlərin və işarələrin sayı, işlənmə texnikası və daşıdığı məna haqqındakı məlumatların qeydiyyatı aparılmışdır.

Gəmiqaya rəsmləri içərisində insan fiqurlarının müstəsna yer tutduğu ilk baxışda diqqəti cəlb edir. İstər tək formada, istərsə də qrup halında çəkilmiş kompozisiyalarda insanın ali bir varlıq olduğu, onun idarəediciliyi və hökmediciliyi aydın şəkildə duyulmaqdadır. Bu, insanların maralı, dağ keçisini, atı və ya vəhşi öküzü ram edərək onların bəzilərinin başına kəndir salıb arxasınca aparmasının, eləcə də əlindəki çomaq və ya qamçı ilə heyvanları idarə etməsinin əks olunduğu bir neçə təsvirdə özünü göstərməkdədir. Qayaüstü kompozisiyalardan bir neçəsində milli musiqi tariximizi araşdıran tədqiqatçılar üçün də maraqlı ola biləcək musiqi alətləri təsvir olunmuşdur. Belə ki, bu tip kompozisiyalarda qrup halında rəqs edən insan fiqurlarından birinin əlində tamamilə sazabənzər musiqi alətinin çəkilməsi ozan və ya aşıq sənətinin qədim tarixi köklərindən xəbər verən danılmaz faktlardan biri hesab oluna bilər.

Gəmiqaya rəsmlərinin böyük bir qismini ilan, keçi, maral, bəbir və öküz rəsmləri təşkil etsə də, abidələrdə çox az sayda qurd, it, at, quş, mifik görünüşlü əjdaha və s. heyvan təsvirləri də var. Öküz təsvirlərinin böyük bir qismi arabalara qoşulmuş vəziyyətdə çəkilmişdir. Heyvan petroqlifləri içərisində keçi təsvirləri daha çox üstünlük təşkil edir. Demək olar ki, hər iki daşdan birinin üzərində keçi təsvirinə rast gəlinir. Həm sxematik, həm də real üslübda təsvir olunmuş keçi rəsmləri böyük ustalıqla rəsm edilmişdir. Sxematik üslubda təsvir edilmiş keçi təsvirlərinin Şərur rayonunun Ovçular təpəsi adlanan yaşayış yerindən tapılmış və e.ə. V minilliyə aid olan təsərrüfat küpələri üzərində qabarıq şəkildə təsvir olunmuş keçi təsvirləri ilə eyni üslubda çəkilməsi, Gəmiqayadakı sxematik təsvirlərin də e.ə. V minilliyə aid olduğunu sübut edir. Real tərzdə, xüsusən bədənləri bitişik üçbucaqlar və sonsuzluq işarələri formasında çəkilmiş heyvan təsvirləri Qaranquş yaylağı və Qız-gəlin çuxurunda daha çoxdur. Bu motivdə keçi rəsmləri Naxçıvan və Urmiyanın Orta Tunc dövrü monoxrom boyalı qabları

üzərində qara rənglə, eləcə də Xocalı-Gədəbəy mədəniyyətinin Son Tunc və İlk Dəmir dövrü sadə-boz rəngli gil qabları üzərində cızma üsulu ilə çəkilmişdir. Gəmiqayada təsvir olunan bəzi keçi rəsmlərinin tamamilə eyni oxşarı Naxçıvanın Eneolit və Tunc dövrü yaşayış yerlərindən tapılmış saxsı qabların üzərində də mövcuddur.

Gəmiqaya rəsmləri içərisində qədim insanların gündəlik həyat tərzlərini, inanclarını, mifik təfəkkürlərini, astral dünyagörüşlərini əks etdirən, lakin simvolik mənası bəzən anlaşılmayan, qarışıq cizgilərlə çəkilmiş petroqliflər də çoxdur. Bu kimi qayaüstü rəsmlərin sirrini açmağa çalışan tədqiqatçılar, eləcə də milli mədəniyyətimizi, onun keçmişini öyrənmək istəyən oxucular üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə hazırlanaraq nəşr olunan bu kitab böyük əhəmiyyətə malikdir.

Beləliklə, 2016-cı ilin avqust-sentyabr aylarında Gəmiqaya ekspedisiyası üzvləri tərəfindən aparılan tədqiqatlar zamanı şərti bölgələr üzrə aşağıdakı faktlar qeydiyyata alınmışdır. Bəzi rəsmlərin bir-birinin üzərində bir neçə dəfə çəkilməsi qeydiyyat zamanı onların oxunmasına və mənalandırılmasına çətinlik yaratmışdır. Buna görə də yanlışlığa yol verməmək üçün belə rəsmlər bir qarışıq rəsm kimi qeydiyyata alınmışdır.

I. Gəmiqaya rəsmlərinin yayıldığı ərazilərin ümumu sahəsi – 136,58 hektar.

Bölgələr üzrə:

Aşağı Baca	– 17,79 ha
Göllər-Qaranquş	– 83,99 ha
Nuh - Nəbi yurdu-Nazağa	– 25, 83 ha
Qız-gəlin çuxuru	– 8,97 ha

II. Gəmiqyada üzərində təsvir olan daşların və onlar üzərindəki təsvirlərin və işarələrin ümumi sayı:

Üzərində təsvir olan daşların sayı	– 2029 ədəd.
Daşlar üzərindəki rəsmlərin və işarələrin sayı	– 7378 ədəd.

Bölgələr üzrə:

Aşağı Baca	– 4 daş, 24 təsvir
Aşağı Göllər	– 89 daş, 239 təsvir
Orta Göllər	– 113 daş, 422 təsvir
Yuxarı Göllər	– 83 daş, 275 təsvir
Qaranquş I (yolun üstü)	– 450 daş, 1356 təsvir
Qaranquş II (yolun altı)	– 514 daş, 1680 təsvir
Nuh-Nəbi yurdu	– 36 daş, 178 təsvir
Nazağa	– 9 daş, 37 təsvir
Qız-gəlin çuxuru	– 731 daş, 3167 təsvir

III. Qaranquş yaylağından muzeylərə aparılan daşların və rəsmlərin sayı:

Üzərində təsvir olan daşların sayı	– 11 ədəd.
Daşlar üzərindəki rəsmlərin və işarələrin sayı	– 44 ədəd.

Muzeylər üzrə:

Gəmiqaya Dövlət Tarix-Bədii Qoruq Muzeyində	– 6 daş, 19 təsvir
Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində	– 2 daş, 13 təsvir
Naxçıvan Dövlət Tarix Muzeyiyində	– 2 daş, 8 təsvir
“Xan sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma altında Muzey Kompleksində	– 1daş, 4 təsvir

Gəmiqayadan (Qaranquş yaylağından) muzeylərə aparılmış daşlar üzərindəki təsvirlərin və işarələrin sayını da ümumi saya əlavə etsək, onda aşağıdakı nəticəni almış olarıq:

Üzərində təsvir olan daşların ümumi sayı	– 2040
Daşlar üzərindəki rəsmlər və işarələrin ümumi sayı	– 7422

Nəticə olaraq, qeyd edirik ki, Gəmiqaya rəsmlərinin yayıldığı areal 136,58 hektar, üstü təsvirli olan daşların sayı 2040, daşlar üzərindəki rəsmlərin sayı isə 7422 ədəddir. Bu rəsmlərdən 6000-i ilk dəfədir ki, bu kitabda çap olunur.

Gəmiqaya abidələri “yazılı” daş salnamələri ilə bizi Azərbaycan xalqının milli-mənəvi dünyasının ulu yaddaş çağlarına aparıb çıxarır. Buradakı tarixi abidələr kompleks şəkildə Azərbaycanın qədim mədəniyyət və incəsənət xəzinəsinə qızıl fond kimi daxil olmuşdur. Bu xəzinəni qoruyub saxlamaq, öyrənib gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Nizami ALIYEV,
sənətşünas, Gəmiqaya ekspedisiyasının rəhbəri

Gamigaya (rock-ship) monuments are ancient cultural and art treasures of Azerbaijan

Petroglyphs in different areas of the world are of rare monuments which have great importance as historical sources and always attract investigators of archeology, art studies, etnography, linguistics, folklore studies, zoology and other branches of science. Such monuments, considered to be the mysterious stone chronicles of our modern time, have been discovered in France (Shaffo and Limeylya), Spain (Altamir, Hornos-de-la Penya, Pasiega), Australia (Tasmania), Africa (Tasilli and Adjara), Central Asia (Seymalitash), Ural, (Karova) Siberia (Tom and Anagara riverbanks), Korelia (The White Sea and shores of Onega lakes), Chukotka, South America and other regions of the world.

Compared to other above-mentioned countries geography of the petroglyphs in Azerbaijan is wider and more ancinet. Even though the revealed petroglyphs in different regions of Azerbaijan are partially similar to the ones in Daghistan, Anatolia, Iran, Central Asia and Siberia for some features, they have their own specific originality and historical elements. Today, Gamigaya petroglyphs in Ordubad region of Nakhchivan Autonomous Republic draw the attention of the scholars as much as the ones in the Caucasus.

Vali Aliyev, the corresponding member of Azerbaijan National Academy of Sciences, doctor of historical sciences, professor said: "The ancient petroglyphs in different neighbouring regions of the Lesser Caucasus are similar to the one another for their engraving techniques, motives, compositioned scenes and semantic subject. The petroglyphs in Azerbaijan are also closely connected with the art monuments of Anatolia. Human and animal descriptions (goat, dog and so on) in Hakkari, Palany and Beldibi regions of Anatolia, belonging to Neolithic period and Bronze age have analogical similarities for their motives, sketchy characters with those in Gamigaya, Kalbajar, Gobustan and also other regions of the Lesser Caucasus and in the Northern Caucasus. But the engraved hunting scenes, different pictographic signs on Gamigaya petroglyphs in the area of Nakhchivan obviously prove that they have rather ancient history than the others."

Though geologists discovered petroglyphs in Nakhchivan AR in 1965, they started to attract explorers' attention after 1968, and Gamigaya petroglyphs have been the subject to many scientific works and new scientific results have been obtained.

As it was mentioned in the decree signed by the Chairman of the Supreme Majlis of Nakhchivan Autonomous Republic as for April 26, 2001 "On the investigation of Gamigaya monument in Ordubad region": "Investigation of Gamigaya began in 1970s- in the first period of political leadership of respected Heydar Aliyev in Azerbaijan. In 1971, the Presidium of the Azerbaijan National Academy of Sciences made a decision to investigate, publish scientific album, and to make a popular scientific film on Gamigaya, and research works have been carried out in Gamigaya and lots of scientific materials have been published during 1970-1987."

Even though research works were stopped because of the social-political situation of the Republic of Azerbaijan at the end of 1980s, regular scientific expeditions were organized to Gamigaya as for 2001 with the initiative of the genius leader Heydar Aliyev`s coming back to the political power for a second time. As the result of all these, many academic conferences and symposiums were held dedicated to Gamigaya monuments, tens of books and scientific articles were published.

By the care and attention of the Chairman of Supreme Majlis, the activity of academic expeditions was well-provided, roads to Gamigaya were reconstructed and all measures to protect the monuments were taken respectively. In 2001, 2002, 2005, 2013 Mr. Vasif Talibov, the Chairman of Supreme Majlis, visited Gamigaya and watched the areas where the petroglyphs were engraved, met with the investigators and gave relevant recommendations. On December 21, 2013 the Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic also participated in the inauguration ceremony of Gamigaya State History-Art Reserve Museum which is 2500 meters above sea level, one of the highest regions of the world. High value by the Chairman of the Supreme Majlis, and his high precision and care shown to the exploration of Gamigaya monuments are patriotism manifest for the scientists to protect the values of their national history.

Taking into consideration the worldwide values of Gamigaya monuments and its importance in learning the ancient history of our people, an International Expedition operated in Gamigaya from July 17 to 20, 2005 and final results were discussed with the participation of the Chairman of Supreme Majlis of Nakhchivan AR, Mr. Vasif Talibov. In addition to this, the international symposium on "Nakhchivan: as an ancient settlement and township building place" held in Nakhchivan city from July 20 to 24, 2001 was organized in Garangush territory of Gamigaya

Pursuant to the decision of the Cabinet of Ministers of Nakhchivan Autonomous Republic as for May 5, 2006 Gamigaya State History-Art Reserve was established.

There are different views on the number of paintings, their spreading areals, engraving technique, period and as well as meaning among the investigators of Gamigaya monuments. Thus, Vali Aliyev, one of the first investigators of Gamigaya monuments, stressed out that there were more than 2000 petroglyphs and they were engraved with scribbling, battering and scuffing techniques. He also mentioned that those petroglyphs were related to the social life style, ideology, different customs, aesthetic and philosophical views of people. According to him, a concrete group of pictograms dates back to the IV-III millennium B.C., while majority of schematic goat, ox and human petroglyphs belong to the IV-II millennium BC.

Deceased Abulfas Husseyni, the linguistic scholar, PhD in philology noted that, Noah storm took place in this very area and people who survived the storm engraved the events, household ceremonies and their imaginations about the heavenly bodies on the stones.

Arif Gadim, the author of the first documentary film on Gamigaya, the honored art worker of Azerbaijan, noted

that investigations started there in 1965. In one of his articles, he writes: "Our forefathers who lived here at that time tried to convey what they were experiencing to us only with conventional drawings, that is, imprecise details."

The Associate Member of the Academy of Sciences, doctor of sciences in history Vali Bakhshaliyev also mentioned that nearly 2000 petroglyphs have been identified here and the writings which are related to not only with semi-nomadic cattle breeding, but also with the beliefs of people have been engraved by carving, scribbling and battering techniques on the rocks. Historical origins of the very petroglyphs, their explanation, their division into periods, their mythology and topography of their placement take an important place in Vali Bakhshaliyev's researches. In his opinion, Gamigaya petroglyphs date back to the IV-II millennium BC.

The Associate Member of ANAS, the doctor of sciences in history Fakhraddin Safarli however, didn't give information about the number of them, but noted that they were engraved on rocks with scuffing technique and the petroglyphs were related to the lifestyle, ideology, aesthetic tastes, customs and traditions of people. Fakhraddin Safarli also notes that the petroglyphs belong to the IV-I millennium BC.

Najaf Museyibli, the doctor of sciences in history emphasized that the number of petroglyphs were more than 1000 and they were engraved by carving, scuffing, battering techniques, and as well as they were related to the outlook, environment, lifestyles, farming activity and religious beliefs of people. Additionally, N. Museyibli noted that those petroglyphs belong to the IV-I millennium BC.

Abbas Seyidov, the doctor of sciences in history underlined that there were more than 1000 petroglyphs on rocks engraved by carving, scuffing and scribbling techniques and they were related not only to nomadic life, but also the ideological views of the people. A. Seyidov related Gamigaya petroglyphs to the IV-I millennium BC.

Deceased Ajdar Farzali, the Ph.D. in philology, for the first time systematically analyzing Gamigaya-Gobustan petroglyphs on scientific, historical, comparative and methodological aspects, arrived at such a conclusion that the mentioned petroglyphs should represent the civilization that hasn't been investigated much so far. The very civilization emerged before the civilizations and cultures such as ancient Greek, Hindu, Egyptian, Sumerian, etc. and had a profound effect on all those civilizations and cultures that came after. Gamigaya-Gobustan culture directly belongs to the people of Azerbaijan (Oghuz). The scientist also underlined that the 20 scripts out of 24 which he found in Gamigaya were an obvious proof that Turkic-Azerbaijani alphabet was based on the Gamigaya-Gobustan alphabet.

Gamigaya petroglyphs were also studied by etnographer-scientists (A. Abbasov, G. Gadirzadeh) and their compared analysis with material-cultural monuments found during archaeological excavations were given.

In August, 2016 "Gamigaya expedition" was organized and sent there by the Supreme Majlis of Nakhchivan Autonomous Republic in order to investigate and study exact spreading areal of petroglyphs, their number, engraving techniques and other related issues.

The members of "Gamigaya expedition" together with the employees of Gamigaya State History-Art Museum systematically investigated and registered the petroglyphs on rocks in different areas lying on more than one thousand hectares of Gamigaya summer pasture – starting from the places named Neftly on the northern west of Gapijig peak, Ashaghy and Yukhary Bajalar (Lower part and Upper part Chimneys) to Lakes in the west of the peak, Garangush (Swallow) summer pasture, Nuh-nabi yurdu (the land of Nabi), Nazagha in the south-west of the peak, Giz-galin (Maiden-bridal) hollow situated in the valley of Paraghachay in the south of Gapijig peak.

Gamigaya summer pasture is situated in the north-east from Paraghachay settlement and Tivi village in Ordubad region of Nakhchivan Autonomous Republic, to the east of the Nasirvaz village, in the center of Zangazur mountain range-the highest one of the Lesser Caucasus. The central part of the range consists of Gazangoldagh (3815,5 m), Davaboynu (3650,5 m) and Gapijig (3906 m) and other peaks of absolute height more than 3500 meters. Watery mountain rivers like Nasirvazchay and Paraghachay take their sources from the tens of emerald-eyed springs flowing to the foot of Gapijig peak. Though the main road to Gamigaya summer pasture is from Nasirvaz village, it is possible to reach Giz-galin hollow from the settlement Paraghachay through the circular road built in 2016 and in addition to this, Garangush summer pasture and Gamigaya State History-Art Museum.

During the researches and investigations, stones having descriptions on in all regions were found and numbered and the photos of the petroglyphs on them were taken, first the original form then whitened with chalk, information about the position of the stone, its size, shape, the number of signs and petroglyphs on it, engraving technique and meaning were noted thoroughly.

The exceptional place of human figures draws the attention among Gamigaya petroglyphs. Man`s being the most exalted being, his governing and dominating abilities are clearly noticed both in individual and grouped descriptions The above-mentioned fact is felt in some pictures which describe how a human tame deer, mountain goats, horses and oxen putting ropes (cords) around some of their heads and leading them, as well as ruling them using sticks or whips.

And even, on some of the musical instruments described in those compositions could be rather interesting for the investigators studying the history of our national music. Thus, describedin such kind of compositions, a saz-shaped musical instrument in the hand of a human figure from a dancing group could be considered as one of the undeniable facts proving the old historical roots of ozan or ashug profession.

However, the great number of Gamigaya petroglyphs consists of animalistic snakes, goats, deer, leopards and oxen on monuments, there are also a few number of wolves, dogs, horses, birds, mythical dragons and other animals as well. The majority of oxen were described harnessed to the carriages. Goat descriptions dominate among animal petroglyphs. Possible to say that in one of every two stones a

goat description is seen. The goats were described both in schematic and real style. The similarity between the goat petroglyphs in schematic style and the ones engraved shagily on the jugs found from the Ovchular hill of Sharur region dating back to the V millennium BC prove that schematic descriptions in Gamigaya also belong to the V millennium BC. In real style, animal petroglyphs especially in the form of joined-body triangle and eternity signs were met in Garangush summer pasture and Gizgalin hollow. The goat descriptions of this motive were described by scribbling on monochrom painted plates which belong to Bronze age of Nakhchivan and Urmia with black colour, also on grey coloured earthenware crockery of Khojali-Gadabey culture belonging to the late Bronze Age and the early Iron Age. The similar petroglyphs of some Gamigaya goat exist on delft-ware plates found in settlements of Nakhchivan belonging to Eneolithic and Bronze Ages.

There are many petrogliphs among Gamigaya descriptions which reflect life styles of people, their beliefs, mythical thoughts, astronomic scopes, having imcomprehensible symbolic meaning and drawn with confusing lines. This album-catalogue, prepared and published under the support of the Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic, is of great importance for the investigators and scholars who are trying to reveal the secret of petroglyphs and as well as for the readers who are eager to learn our national culture and its past.

Hereby, during the investigations carried out in August- September of 2016 by the members of Gamigaya expedition the following facts over the provisional regions were registered. During registration some difficulties were met in reading and understanding meanings as the drawings were engraved one after another for many times. Therefore, such kind of drawings were registered as mixed ones to avoid mistakes.

I. The total area of Gamigaya petroglyphs – 136,58 hectares
Including regions:
1. Ashaghy Baja – 17,79 hectares
2. Lakes-Garangush – 83,99 hectares
3. The land of Nuh-nabi, Nazagha – 25,83 hectares
4. Gizgalin hollow – 8.97 hectares

II. The total number of stones in Gamigaya having petroglyphs on and the total number of petroglyphs and signs on them.

The number of stones having petroglyphs on – 2029
The number of petroglyphs and signs on stones – 7378
1. Ashaghy Baja (Lower part chimney) – 4 stones, 24 descriptions
2. Ashaghy Gollar (Lower part lakes) – 89 stones, 239 descriptions
3. Orta Gollar (Middle part lakes) – 113 stones, 422 descriptions
4. Yukhary Gollar (Upper part lakes) – 83 stones, 275 descriptions
5. Garangush (Swallow) I (up the road) – 450 stones, 1356 descriptions
6. Garangush (Swallow) II (down the road) – 514 stones,1680 descriptions
7. The land of Nuh-nabi – 36 stones, 178 descriptions
8. Nazagha – 9 stones, 37 descriptions
